**S Ə N Ə T Ş Ü N A S L I Q**

**UOT 72**

# DİZAYNERİN BƏDİİ-LAYİHƏ FƏALİYYƏTİNİN SPESİFİKASI

**Pərvanə Şəmistan qızı ƏLİYEVA**

*Qərbi Kaspi Universiteti*
*"Dizayn" kafedrası*
*Azərbaycan Memarlar İttifaqının üzvü*

parvana.aliyeva@inbox.ru

## XÜLASƏ

Məqalədə dizayn nədir, onun dərk edilməsində mövcud olan fikir ayrılıqları, dizaynerin fəaliyyətinin obyektləri və onların layihələndirilməsinin spesifikası, dizayn sənətinin təsviri incəsənət və mühəndis layihələndirilməsi ilə müqayisəli analizi aparılır. Layihələndirmə-yaradıcılıq fəaliyyətinin növlərindən biri kimi dizaynın mahiyyətinin spesifikası dizayn fəaliyyətinin nəyə istiqamətləndiyindən, bu fəaliyyətin aspektinin nədən ibarət olduğundan, onun mühəndis layihəsindən və bədii yaradıcılıqdan nə ilə fərqləndiyindən asılı olaraq müəyyən edilə bilər. Həmçinin dizaynın əsas prinsiplərindən birinin layihələndirməyə, dizayn-layihələndirmə obyektinə təcrid olunmuş şəkildə deyil, "insan-əşya-mühit" sistemində baxılmasından ibarət olan sistemli yanaşma olduğu da məqalədə öz yerini tapmışdır.

**Açar sözlər:** dizayn termini, erqonomiklik, mühəndis layihələndirilməsi, dizayn fəaliyyətinin predmeti, insan- əşya-mühit

# СПЕЦИФИКА ХУДОЖЕСТВЕННО-ПРОЕКТНОЙ ДЕЯТЕЛЬНОСТИ ДИЗАЙНЕРА

## РЕЗЮМЕ

В статье расматривается сущность дизайна, цели дизайна, проблемы рассмотрения дизайна с различных аспектов, в чем состоит предмет дизайна, сравнительный анализ дизайна с изобразительным искусством и инженерным проектированием. Специфика предмета дизайн-проектирования проявляется в потребительской ценности вещи для тех, в расчете на

кого она спроектирована, совокупности многих свойств, которые проявляются в неразрывности красоты и пользы . При проектировании изделий принцип системности предполагает учет при проектировании изделий – объектов дизайна их связей с другими изделиями, со средой функционирования и восприятия этого объекта человеком – потребителем (человек – предмет-среда).

**Ключевые слова:** понятие «дизайн», эргономичность, инженерное проектирование, предмет дизайн деятельности, человек-предмет- среда.

## SPECIFICITY OF DESIGNER'S ARTISTIC AND DESIGN ACTIVITY

## SUMMARY

In the article, comparative analysis is conducted on what is design, existing controversies about the perception of it, objects of the activities of designers and their project specificity, and the bonds of the design profession with visual arts, and engineering. Specificity of the purpose of design as one of the kinds of projection-creativity activities can be determined by the direction of designing activity, the constitution of the aspect of this activity, and the differences between its engineering projection and literary creativity, furthermore, instead of isolating one of the main principles of design to the design-projection object, systematic approach in the perspective of “human-object-environment” took its place in the article

**Keywords:** design term, ergonomics, designer projection, major of design activity, human-object-environment

“Dizayn” anlayışının dərk edilməsi və qeyri-müəyyənliyindəki fikir ayrılıqları əsasən 30-cu illərin əvvəlindən bədii-konstruktor layihələndirmə-yaradıcılıq fəaliyyəti və onun nəticələrini ifadə edən beynəlxalq terminə çevrilən ingilis dilində mövcud olan “design” sözünün çoxmənalılığı ilə şərtlənmişdir.

“Dizayn” termini ilk dəfə 1919-cu ildə ingilis rəssam Cozef Sinel tərəfindən sənaye istehsalı üçün işlənib hazırlanan məmulatların nümunələri ilə əlaqədar tətbiq edilmişdir, həm də qeyd etmək lazımdır ki, o, məhsulun kütləvi istehsalı üçün nəzərdə tutulmuş inkişaf etmiş mexanikləşdirilmiş avadanlığa malik sənayeyə yönəlmiş tarixən yeni bədii substantiv yaradıcılıq sahəsinin ifadə edilməsi üçün «industrial design» söz birləşməsindən istifadə edərək, dəqiqləşdirici industrial anlayışını daxil etmişdir.

Bu termin əvvəlcə 20-ci illərin sonunda, 30-cu illərin əvvəlində ABŞ-da möhkəmlənmiş, daha sonra XX əsrin ikinci yarısından başlayaraq, bütün dünyada geniş surətdə yayılmışdır.

1959-cu ildə Stokholmda Beynəlxalq Sənaye Dizaynı Cəmiyyətləri Şurasının (International Counsil of Societies of Industrial Design) birinci konqre-

sində «industrial design» termini bədii yaradıcılığın yeni sahəsinin, onun metodunun, nəticəsinin (dizayn məhsulunun) və bu yaradıcılıq fəaliyyəti ilə bağlı nəzəri müddəalar sisteminin ifadə edilməsi üçün ən yaxşı termin kimi tanındı.

Layihələndirmə-yaradıcılıq fəaliyyətinin növlərindən biri kimi dizaynın mahiyyətinin spesifikası dizayn-fəaliyyətinin nəyə istiqamətləndiyinin, bu fəaliyyətin aspektinin nədən ibarət olduğunun, onun mühəndis layihəsindən və bədii yaradıcılıqdan nə ilə fərqləndiyinin, müəyyən növ fərqliliklərinin olduğu zaman memarlıq və tətbiqi incəsənətdə yaradıcılıqla oxşarlığının nədən ibarət olduğunun aydınlaşdırılması zamanı müəyyən edilə bilər (2, s.34).

Dizayn fəaliyyətinin predmeti obyektin istehlak dəyərinin tam mənasının əks olunması şərtilə onun harmonik, məzmunlu və ifadəli formasını yaratmaqdır.

Mühəndis layihələndirməsi sənaye istehsalında onun hazırlanmasının konstruktivlik, texnolojilik, faydalılıq tələblərinə riayət etməklə işlənən obyektin işçi funksiyasının texniki baxımdan yerinə yetirilməsinə yönəlmişdir. Mühəndis-konstruktor, istehsalın mənfəətliliyi tələblərini təmin edərək, eyni zamanda ölçmə-hesablama və eksperimental-qeydiyyat metodları ilə funksionallıq, etibarlılıq, davamlılıq, təhlükəsizlik, istismarda rahatlılıq (erqonomiklik) xüsusiyyətlərə nail olmanın təmin ediləcəyi dərəcədə bu xüsusiyyətlərdə ifadə edilən obyektin istehlakçısının (istismarda çalışan işçinin, istifadəçinin) tələblərini təmin etməyə çalışır. Bir qayda olaraq, mühəndis üzərində çalışdığı obyektin estetik mükəmməlliyinə nail olmağı bir məqsəd olaraq qarşısına qoymur, çünki bu, onun əməkdaşlıq etdiyi rəssam – konstruktorun səlahiyyətlərinə aiddir. Üzərində işlənən obyektin bir çox istehlak xüsusiyyətləri ya mühəndis və dizaynerin (hərdən də erqonomistin) birgə layihə-yaradıcılıq fəaliyyətinin nəticəsi, yaxud da yalnız mühəndis layihələndirməsinin məhsuludur. Texniki baxımdan mürəkkəb olmayan obyektlərdə təcrübəli ixtisaslı dizayner, zərurət yarandığı təqdirdə mütəxəssislərin məsləhətinə və məlumat kitabçalarına müraciət edərək, layihələndirilən müvafiq növ və tipli obyektin demək olar ki, bütün istehlak xüsusiyyətlərinin yüksək səviyyədə təmin edilməsi məsələsini müstəqil şəkildə həll etmək iqtidarındadır.

Təsviri incəsənət sahəsində yaradıcı fəaliyyət insanı əhatə edən bütün dünyanın, insanın varlığının bir çox formalarının, insanın özünün mənəvi dünyasının, onun fəaliyyətinin, hisslərinin, duyğularının, həyatı anlayış tərzinin dünyaya münasibətini, ideallarını mənəvi-dəyər baxımdan əks etdirilməsinə yönəlmişdir. Bu inikas, incəsənətin konkret növ və janrlarında bədii ideyanın təcəssümünün spesifikasını nəzərə almaqla, rəssamın təsvir edilən obyektə fərdi münasibəti prizmasından həyata keçirilir.

Dizayn dünyanı və insanı onun varlığının təzahürlərinin bütün müxtəlifliyində təsvir etmir, insana münasibəti və onun tərəfindən layihələndirilən bütün obyektlərin insan üçün əhəmiyyətini, mənasını ifadə edir.

Bundan başqa, dizaynda (həm memarlıqda, həm də mühəndis layihələndirməsində) layihələndiriləcək obyektin fikirləşib tapılması üçün yaradıcı iş

müvafiq sənaye texnologiyası əsasında materialın yaradıcı ideyasının həyata keçirilməsindən ayrılır.

Əgər təsviri və ya tətbiqi sənət üzrə rəssam, bir qayda olaraq, yaradıcı ideyanı şəxsən özü (əllə, sənətkarlıq iş üsulları ilə) material üzərində tətbiq edirsə, bu zaman layihədə (qrafik sənəddə, maketdə, modeldə, müəllif nümunəsində) öz təcəssümünü tapan dizaynerin ideyası layihənin mühəndis və memarlıq yaradıcılıq fəaliyyətində tətbiq edilməsi prosesi ilə analogiya üzrə digər insanlar tərəfindən həyata keçirilir (1, s.136).

İnsanlar arasındakı ünsiyyətin sosial-mədəni baxımdan şərtləndiyi (bu və ya digər dərəcədə) insan fəaliyyətinin istənilən sahəsində və mühitində demək olar ki, istənilən texniki sənaye məhsulu (komplekt, ansambl, kompleks, sistem) dizaynın obyekti ola bilər. Dizayn fəaliyyətinin sahələri prinsip etibarilə ictimai təcrübə və onun nəzəri anlayış və əsaslandırılmasını, həmin fəaliyyət növü üçün peşəkar kadrların hazırlanmasını, fəaliyyətin müxtəlif aspektlərinin nəticəsinin qiymətləndirilməsini və həmin peşə üzrə mütəxəssislərin konsultativ fəaliyyətini özündə birləşdirən insan fəaliyyətinin bir çox digər sahələri ilə analogiya təşkil edir. Dizaynın əsas metodu “kompozisiya forma yaradıcılığı vasitəsilə dizayn-layihələndirmə obyektinin bədii-obrazlı modelləşdirilməsi” kimi müəyyən edilir (3).

Dizaynın əsas prinsiplərindən birinin layihələndirməyə, dizayn-layihələndirmə obyektinə (obyektlərinə) təcrid olunmuş şəkildə deyil, “insan-əşya-mühit” sistemində baxılmasından ibarət olan sistemli yanaşma olduğu xatırladılmışdı. Dizayn obyektinin forma və məzmununun, strukturunun və funksiyasının əlaqəsinin qanunauyğunluqları bu prinsipdən irəli gəlir.

Layihələndirmə obyektinin özünə, predmet-mühit sisteminin tərkib elementi kimi, öz növbəsində, kompozisiya forma yaradıcılığı prosesində yaradılan və harmoniyalaşdırılan bu obyektin forma və məzmununun (mahiyyətinin) elementlərinin qarşılıqlı əlaqəsinin xüsusi sistemi kimi baxılmalıdır.

**Ədəbiyyat:**

1. Аронов, В. Р. Художник и предметное творчество. Проблемы взаимодействия материальной и художественной культуры XX века / В. Р. Аронов. М.: Советский художник, 1987, с.136
2. Глазычев, В. Л. О дизайне: очерки по теории и практике дизайна на Западе / В. Л. Глазычев. М.: Искусство, 1970, с.34
3. Медведев, В. Ю. Роль дизайна в формировании культуры: учеб. пособие / В. Ю. Медведев. 2-е изд., испр. – СПб.: СПГУТД, 2004.
4. Медведев, В. Ю. Связи и отношения архитектонических искусств в современном мире предметного творчества / В. Ю. Медведев // Вестник СПГУТД. 2009, № 16.